

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 151 (24.288)

*22 avqust 2023-cü il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Macarıstanda işgüzar səfərdə olub

Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə Budapeştə işgüzar səfərə gəlib.

Budapeştin Ferents List adına Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Macarıstanın ədliyyə naziri Bentze Tujon və digər rəsmi şəxslər qarşıladılar.

* * *



Avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə görüşü olub.

Görüşdə Macarıstanın Baş naziri Viktor Orban ölkəsinə səfərə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Macarıstanın Milli günü münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı bu ilin yanvarında Macarıstana səfərini və səfər zamanı aparılmış səmərəli və əhatəli müzakirələrin vacibliyini vurğuladı, əldə edilmiş razılaşmaların uğurla həyata keçirilməsindən məmnunluğunu ifadə etdi.

Prezident İlham Əliyev Macarıstanın Baş nazirini Azərbaycana səfərə dəvət etdi.

Dəvət minnətdarlıqla qəbul olundu.

Görüş əsnasında Azərbaycan ilə Macarıstan arasında enerji, o cümlədən neft-qaz sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olundu, Azərbaycan qazının Macarıstan bazarına çatdırılmasının əhəmiyyəti vurğulandı. Qida sənayesi sahəsində Macarıstanın Azərbaycana investisiya qoyuluşu, əczaçılıq sənayesi sahələrində əməkdaşlıqla bağlı əldə olunmuş müsbət dinamika qeyd edildi, Macarıstan aviadaşıyıcısı vasitəsilə Bakı-Budapeşt reyslərinin həyata keçirilməsinin önəminə toxunuldu, ümumilikdə, ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa və quruculuq işlərində Macarıstan şirkətlərinin fəaliyyətə başlaması müsbət addım kimi qiymətləndirildi və bu istiqamətdə daha böyük imkanların olduğu vurğulandı. Elm-təhsil sahəsində əməkdaşlıq qeyd edildi, xüsusilə Macarıstanda azərbaycanlı tələbələrə ali təhsil üzrə təqaüdlərin verilməsi təqdir olundu, gələcəkdə peşə təhsili sahəsində də əməkdaşlıq məsələləri xüsusi vurğulandı.

Söhbət zamanı, həmçinin Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerji sahəsində strateji tərəfdaşlığa dair Sazişin imzalanmasının və Qara dənizin dibi ilə elektrik xəttinin çəkilməsi layihəsinin həyata keçirilməsi istiqamətində səylərin davam etdirilməsinin önəmi qeyd olundu, Orta Dəhlizin əhəmiyyəti və yükdaşımaların artması vurğulandı.

Görüşdə ölkələrimizin Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd edildi.

* * *



Avqustun 20-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü xanım Jelka Tsviyanoviç və Serb Respublikasının Prezidenti Milorad Dodik ilə görüşü olub.

Görüşdə Prezident İlham Əliyevin bu ilin aprelində Bosniya və Herseqovinaya rəsmi səfəri və səfər zamanı aparılmış müzakirələrin önəmi vurğulandı, həmin səfər çərçivəsində Azərbaycan ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Bəyannamənin imzalanmasının önəmi qeyd edildi.

Bəyannamədə qarşıya qoyulan vəzifələrin hazırda həyata keçirilməsi istiqamətində görülən işlər barədə fikir mübadiləsi aparıldı.

Söhbət zamanı münasibətlərimizin hərtərəfli inkişafından məmnunluq ifadə olundu, iqtisadi-ticari əlaqələrin və energetika sahəsində əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edildi. Xüsusilə enerji sahəsində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı, ölkələrimizin aidiyyəti nazirlikləri və təşkilatları arasında bu sahədə görüşlərin keçirildiyi bildirildi, qarşıya qoyulan iqtisadi və investisiya layihələrinin reallaşdırılması üzrə müzakirələrin aparıldığı qeyd olundu.

* * *

Avqustun 20-də Macarıstanın paytaxtı Budapeştdəki Milli Atletika Mərkəzində atletika üzrə dünya çempionatının kişilər arasında 100 metr məsafəyə qaçış yarışının finalı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Macarıstanın Baş naziri Viktor Orban ilə birlikdə finalı izləyiblər.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani, Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü xanım Jelka Tsviyanoviç də yarışa baxıblar.

Atletika üzrə dünya çempionatı ilk dəfədir, Budapeştdə keçirilir. Macarıstanın ev sahibliyi etdiyi ən böyük idman yarışı olan atletika üzrə dünya çempionatı avqustun 19-da start götürüb. Avqustun 27-dək davam edəcək bu mötəbər turnirdə 200-dən çox ölkədən 2000-dən artıq idmançı atletikanın 49 növü üzrə mübarizə aparır. Azərbaycanı dünya çempionatında iki idmançı təmsil edir.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 20-də Budapeştdə Macarıstanın Milli bayramı – Müqəddəs Stefan Günü münasibətilə verilən ziyafətdə iştirak ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri avqustun 21-də başa çatıb.

**AZƏRTAC**

## L.F.İbrahimovanın "Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının sədri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ləman Firdovsi qızı İbrahimova "Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 21 avqust 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda yeni təyinatlar olub

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin müvafiq əmrlərinə əsasən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun bir sıra vəzifələrinə yeni təyinatlar olub.

Baş prokurorun əmrinə əsasən Qalib İsmayılov Naxçıvan şəhər prokuroru vəzifəsinə təyin edilib. Digər bir əmrlə Elsevər Quliyev Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar şöbəsinin prokuroru vəzifəsinə təyin edilib

Naxçıvan Muxtar Respublikasının Culfa və Ordubad rayonlarına da yeni prokurorlar təyin edilib. Baş prokuror Kamran Əliyevin müvafiq əmrinə əsasən Afət Kərimli Culfa rayon prokuroru, Kənan Seyidov isə ikinci səlahiyyət müddətinə Ordubad rayon prokuroru vəzifəsinə təyin edilib. Qeyd edək ki, Afət Kərimli bu təyinatadək Babək rayon prokurorunun müavini vəzifəsində işləyib.

**Xəbərlər şöbəsi**

# Cümhuriyyətimizin qurulması ilə başlanan, bu gün isə özünün çiçəklənən dövrünü yaşayan Azərbaycan xalqının azadlığı, müstəqilliyi tarixi nailiyyətdir, əbədidir

*"Şərq qapısı" qəzetinin bugünkü sayının qonağı muxtar respublikamıza əlamətdar bir tarixdə – Ümummilli Lider Heydər Əliyevin yüzillik yubileyi dövründə səfər edən tarixçi-alim, AMEA-nın Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, professor Solmaz Rüstəmova-Tohididir. Qeyd edək ki, Solmaz xanım Azərbaycan, İran, Türkiyə, Qafqaz və yaxın Şərqin XIX-XX əsrlər siyasi, sosial tarixi, o cümlədən Azərbaycan Xalq Cümhuriyyəti və 1918-ci il azərbaycanlıların soyqırımı tarixi üzrə tanınmış mütəxəssisdir, 26 elmi kitab və monoqrafiya, 80-dən artıq məqalənin müəllifidir. Elmi əsərləri Azərbaycan, Rusiya, İngiltərə, Hollandiya, Almaniya, İran, Türkiyə, Hindistan, Qazaxıstan və Özbəkistanda Azərbaycan, rus,ingilis, fars, türk, alman dillərində nəşr olunub. Müxtəlif ölkələrdə Azərbaycan və İran tarixinə dair kütləvi mühazirələrlə çıxış edir.*

***– Solmaz xanım, muxtar respublikamıza xoş gəlmisiniz. Belə əlamətdar bir tarixdə diyarımıza səfər etmək, düşünürəm ki, yaddaqalandır. Siz həm də yurdumuzun çoxəsrlik tarixinə bələd olan tədqiqatçısınız, Naxçıvan haqqında təəssüratlarınız, düşüncələriniz bizim üçün də, oxucularımız üçün də maraqlı olacaq.***



– Çox sağ olun, təşəkkür edirəm. Əvvəla qeyd edim ki, bu mənim Naxçıvana artıq üçüncü səfərimdir. Hər səfərimdə də bu qədim diyarda fərqli ab-hava duyuram, təəssüratlarım genişlənir, dərinləşir. Məlumdur ki, Naxçıvan yalnız Azərbaycan deyil, həm də Yaxın Şərq coğrafiyasının qədim tarixə malik, bir çox cəhətdən əhəmiyyətli bölgələrindən biridir. Bu torpaqda qədim sivilizasiyanın nişanələri var. Sonrakı dövrlərdə də bir məmləkət olaraq Naxçıvanda dövlətçilik, iqtisadi və mədəni həyat müxtəlif parametrlərdə təcəssüm olunub.

Naxçıvan diyarının son 2-3 əsrlik tarixinə nəzər salsaq, bu ərazilərdə böyük geosiyasi hadisələrin cərəyan etdiyini görərik. Xanlıqlar dövründən başlayaraq Azərbaycanın digər bölgələrində olduğu kimi, bu məntəqədə də yarıfeodal və yarımüstəqil dövlətçiliyin – Naxçıvan xanlığının əsasının qoyulması və onun tarixi, XIX əsrin əvvəllərində rus-İran müharibələrinin gedişi, Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinin imzalanması ilə Azərbaycan torpaqları və xalqı üçün tamamilə yeni reallıqların meydana gəlməsi, təbii ki, bu hadisələri yaşayan Naxçıvan torpağı və əhalisinin taleyində də dərin izlər qoyub. Diyarın qanunauyğun inkişaf prosesi qırılıb, xalqın ənənəvi həyat tərzinə xarici müdaxilələr olub. Rus işğalı Azərbaycanın şimal xanlıqlarından fərqli olaraq daha gec ələ keçirdiyi İrəvan və Naxçıvan xanlıqlarının taleyində daha ağır rol oynayıb.

Amma bununla belə bütün bu mənfi proseslərin qarşılığında Naxçıvan özünə məxsusluğunu qoruyub saxlayıb, əhali geniş miqyasda öz əzəli yurdlarını tərk etməyib, müxtəlif vasitələrlə üzləşdiyi təzyiqlərə davam gətirib və nəticə bu gün göz qabağındadır. Tarixi sınaqlardan şərəflə çıxmış Naxçıvan torpağı və onun dözümlü, mübariz xalqı, hətta müasir dövrdə də üzləşdiyi çətinliklərə sinə gərir. Hazırda blokada şəraitində yaşamasına, Azərbaycanın digər əraziləri ilə quru sərhədlərinin bağlanmasına, uzun illər düşmənlə üz-üzə dayanmasına baxmayaraq, Naxçıvan nəinki geriləmir, əksinə, inkişaf və tərəqqi yolunu qət edir. Naxçıvan barədə danışdıqda, təbii ki, bu torpaqda yetişmiş böyük şəxsiyyətlərin adını çəkməmək olmaz. Ötən gün diaspor gənclərinə etdiyim çıxışımda da mən bu məqama toxundum. Belə ki, XIX əsrin sonları – XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda maarifçilik hərəkatı, etnik və milli kimlik şüurun oyanması, Azərbaycan mətbuatının təşəkkülü, "Azərbaycan" adının Cənubi Qafqaz bölgəsində möhkəmlənməsi, burada yaşayan türk-azərbaycanlı əhalisinin həyatında və daha geniş anlamda rus imperiyası idarəçiliyinin yeridilməsi sahəsində müstəsna rol oynamış tarixi şəxsiyyətlər arasında xeyli naxçıvanlı ziyalının adını çəkmək olar. Bu da həmin diyarda açıqfikirli insanların yetişməsi üçün münbit mühitin olduğunu göstərir.

***– Solmaz xanım, fikrinizin davamı kimi qeyd etmək istərdim ki, XX əsrin ilk illərindən etibarən naxçıvanlı qələm sahibləri, maarifçilər xalqımızın rifahı yolunda böyük fədakarlıqla çalışmışlar. Məhəmməd ağa Şahtaxtlının "Şərqi-rus"u, Mirzə Cəlilin "Molla Nəsrəddin"i, "Anamın kitabı" tragediyası, Hüseyn Cavidin "Şeyx Sənan"ı, "İblis"i və daha neçə-neçə böyük əsərlər cəmiyyət həyatında hadisəyə çevrilmişdir. Elə götürək həmin illərin ən dəyərli əsərlərindən olan Məmməd Səid Ordubadinin "Qanlı sənələr" toplusunu...***

– Bu sırada ilk olaraq Məhəmməd ağa Şahtaxtlının adı xüsusi vurğulanmalıdır. Belə ki, hələ XIX əsrin son onilliyində bu işıqlı şəxsiyyət "Kəşkül", "Ziyayi-Qafqaziyyə", "Kaspi" qəzetlərində ilk dəfə türk, azərbaycanlı kimlik məsələlərini gündəmə gətirib, rus məmuriyyəti və mətbuatı tərəfindən Qafqazın müsəlman əhalisinin və dilinin "tatar" adlandırılmasına etiraz edərək "Azərbaycan türkü", "Türk-Azərbaycan dili" ifadələrinin işlənilməsini tələb edib. Bununla belə bu işıqlı şəxsiyyət 1891-ci ildə bağlanan "Kəşkül" qəzetindən sonra 14 il müddətində Azərbaycan dilində qəzet buraxmaq üçün inadla rus hökumətindən icazə istəyib, Rusiya canişinliyindəki yüksək mənsəbli məmurunun onun bu cəhdlərinə verdiyi cavabı isə təbii ki, ürəkaçan olmayıb. Halbuki sözügedən tarixdə, Azərbaycan dilində mətbuata icazə verilmədiyi həmin 14 il ərzində Cənubi Qafqazda erməni və gürcü dillərində 19 adda qəzet-jurnal çıxırdı. Son nəticədə, məhz Məhəmməd ağa Şahtaxtlı 1903-cü ildə "Şərqi-rus" adında Azərbaycan dilində qəzet nəşrinə nail olub.

O ki qaldı bayaq adını çəkdiyiniz Məmməd Səid Ordubadiyə, düşünürəm ki, bu tanınmış ədəbiyyatçı, yazıçı, ictimai və dövlət xadimi əgər sonrakı əsərlərini heç yazmasaydı belə 1911-ci ildə nəşr etdirdiyi "Qanlı sənələr" ("Qanlı illər") adlı kitabı ilə artıq adını tarixə yazmış olacaqdı. Belə ki, 1905-1906-cı illər Cənubi Qafqazda ermənilərin müsəlman əhalisinə qarşı ilk silahlı hücumlar – tarixə "erməni-müsəlman münaqişəsi" kimi düşmüş və Cənubi Qafqazın bütün böyük şəhərlərini və qəzalarını əhatə etmişdir. Bu qanlı faciələrin tarixi salnaməsini yazmaq məhz Ordubadiyə qismət olmuşdur. Əhatə dairəsinə, düşmənçilik həddinə, verilən qurbanların, yandırılan, məhv edilən kəndlərin, təsərrüfatların sayına görə görünməmiş miqyas almış bu qanlı hadisələrdən hədsiz narahat olmuş Azərbaycanın işıqlı insanları bu acı tarixin bir daha təkrar olunmaması üçün onu sənədləşdirməyi qərara almış, bu işi görmək o vaxt artıq tanınmış yazar olan Ordubadiyə tapşırılmış və milyonçu Murtuza Muxtarovun vəsaiti ilə 1911-ci ildə "Qanlı sənələr" adlı ilk sənədlər toplusu meydana gəlmişdir. Maraqlıdır ki, Ordubadi mətbuat vasitəsilə xalqa müraciəti sayəsində silahlı toqquşmaya məruz qalmış bütün bölgələrdən topladığı sənədləri sistemləşdirməklə kifayətlənməmiş, bu kitaba yazdığı "Ön söz"də həmin hadisələrə çox düzgün siyasi qiymət vermiş, əsas günahkarların – ilk növbədə, terrorçu erməni "Daşnaksutyun" partiyasının adını çəkmişdir. Bu mühüm məqam onu göstərir ki, hələ o vaxtlar erməni terrorizminin baş qaldırdığı ilkin dövrdə azərbaycanlı ziyalılar və ictimai xadimlər hadisələrin kökünü görürlərmiş.

***– Solmaz xanım, adını çəkdiyimiz kitab yalnız erməni qəsbkarlarının azərbaycanlılara qarşı törətdiyi soyqırımı aktlarının, faciələrin təsdiqi deyil. "Qanlı sənələr" həm də keçmişdən bu günümüzə tutulmuş bir həqiqət güzgüsüdür. Belə bir kitabın hazırlanmasının məhz Ordubadiyə tapşırılması isə maraqlı faktdır…***

– Sözügedən illərdə Məmməd Səid Ordubadi artıq xeyli tanınmış yazar və ictimai fəaliyyəti olan şəxs idi. Onun dövri mətbuatda az qala hər gün, bəzən müxtəlif mətbu orqanlarda gündə bir neçə məqaləsi, şeiri, ədəbi-tənqidi yazıları, felyetonları çap olunurdu. Ordubad yurdunun bu yetirməsi, gələcəyin görkəmli yazıçısı, tarixi romanlar müəllifi həm də "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndəsi idi. Bu jurnalın və digər nüfuzlu qəzet və jurnalların səhifələrində mükəmməl bir məktəb keçmiş, heç də bütün yazarlara məxsus olmayan publisistika janrının incəliklərinə yiyələnmişdi. Nəticədə, mətbuatı, jurnalistikanı yaxından duyduğu üçün sonrakı nəsr əsərlərində publisistika əlamətləri bədiiliklə üzvi surətdə qaynayıb qarışırdı... "Qanlı sənələr" kitabı isə Məmməd Səid Ordubadi yaradıcılığında xüsusi mövqe tutur, belə ki, bu əsər həm də dövrün hadisələrinə dair ilkin tarixi mənbə rolunu oynayır. Kitabda sadalanan faktların fonunda çox mühüm siyasi hadisələrin dərin qatları açılır. Hələ 100 ildən artıq davam edəcək və indiyədək bitməmiş ağır, faciəli keşməkeşli hadisələrin arxasında dayanan bir toplumun adı – erməni işğalçıları və məqsədi – Azərbaycana qarşı qaldırılmış torpaq iddiaları açıqlanır.

***– Solmaz xanım, səmimi etiraf etmək lazımdır ki, bu faciələrin baş verməsində mühitin də böyük təsiri olub. Əlbəttə, xurafatın, savadsızlığın, cəhalətin baş alıb getdiyi bir mühitdə, maarifçilərimizin zəhmətinin qarşılığının təhqirlə verildiyi bir cəmiyyətdə bu cür hadisələrin baş verməsinin qaçınılmaz olması mümkün idi...***

– Bilirsiniz, Ordubadi, həqiqətən, bu qanlı hadisələrin baş verməsi səbəblərindən biri kimi müsəlman əhalisinin geriliyini, hadisələrə hazır olmadığını, cəhalət və nadanlıq içində boğulduğunu göstərir. Lakin bütün bu halların da öz səbəbləri və kökləri vardı. XIX əsrin 30-cu illərindən başlayaraq artıq müstəmləkə xalqı statusunda yaşayan bir xalqın həm də tərkibində olduğu dövlətin mənsub olduğu dini və etnik – xristian-rus kimliyindən tam fərqli bir toplumun üzləşdiyi məqsədyönlü təzyiq siyasəti, təbii ki, onun tez bir zamanda sivil inkişafını təmin edə bilməzdi. Bayaq dedik ki, azərbaycanlı əhaliyə sual edəndə ki, milliyyətin nədir, deyirdi müsəlmanam. "Azərbaycanlı" sözü o dövr, ümumən, gündəmdə yox idi və işlənmirdi, işlənə bilməzdi. Rus mütləqiyyətinin dəstəyi ilə müsəlman əhalinin yaşadığı ərazilərdə feodal quruluşuna xas idarəçiliyə, dini fanatizm və xurafata üstünlük verilir, fərqli, modern dəyərlər yaxın buraxılmırdı. Rus hakimiyyəti, hətta yerli xalqın dini qurumlarını da dövlət idarəçiliyi sisteminə salmışdı, şeyxülislam və müfti vəzifələrindən tutmuş yerlərdə mollalara qədər təyinatlara rus çinovnikləri nəzarət edirdi. Dövri mətbuatda, xüsusilə Ömər Faiq Nemanzadənin publisistikasında və "Molla Nəsrəddin" jurnalında dövrün çətin, təlatümlü prosesləri ilə bağlı xeyli yazılar var. Həmin yazıları oxuduqca anlayırıq ki, maarifçilərimiz boyunlarına böyük bir yük götürərək, mənsub olduqları xalqı dünyanın inkişaf etmiş xalqlarına yaxınlaşdırmaq yolunda böyük fədakarlıq göstərirlər, bir sözlə, maarif nurunu, işığını gələcək nəsillərə ötürürlər. Və həmin gələcək işıqlı varislər Şərqdə ilk demokratik cümhuriyyət olan Azərbaycan Xalq Cümhuriyyətini yaradır.

***– Solmaz xanım, diaspor gənclərinə etdiyiniz məruzənizin əsas tərkib hissəsi həm də bu il 100 illiyini qeyd etdiyimiz Heydər Əliyevin, Naxçıvan torpağının yetirdiyi bu böyük siyasət və dövlət adamının adı ilə bağlı idi. Bilirsiniz ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə cümhuriyyətin 80 illik yubileyinin, ardınca ölkə başçısı cənab İlham Əliyevin Sərəncamı ilə cümhuriyyətin 100 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi böyük tarixi hadisə idi. Elə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyində bu mövzunu müzakirə etmək də, şübhəsiz ki, maraqlı olar...***

– Görkəmli dövlət xadimi Heydər Əliyevin 1998-ci ildə cümhuriyyət dövlətinin 80 illiyinin keçirilməsinə dair verdiyi Fərman bu sahədə görülən işlərin yalnız bir hissəsi idi. Əslində, Azərbaycan dövlətçiliyi üçün yaranan çox təhlükəli bir zamanda hakimiyyətə qayıdan və bu dövlətçiliyi xilas edən dahi siyasətçi Heydər Əliyev həmin təlatümlü zamanda müasir Azərbaycan Respublikasını Cümhuriyyətin varisi elan etməklə Azərbaycanda dövlətçiliyin varisliyi ənənəsinin əsasını qoydu. Eləcə də cümhuriyyətin milli ideologiyası olan Azərbaycançılıq ideologiyasına yeni siyasi məzmun – Azərbaycanda yaşayan bütün millətlərin və xalqların Vətəni məzmunu verməklə onu dövlət siyasətinə çevirdi. Heydər Əliyevin bu sahədə atdığı daha bir mühüm addım – dövlətçiliyin əsas atributu – Azərbaycan dilinin dövlət dili kimi statusu haqqında verdiyi Sərəncam da son dərəcə böyük tarixi əhəmiyyətə malik idi. Belə ki, o dövrdə bir sıra ədəbiyyat xadimləri dövlət dilinin "Türk dili" adlandırılması təklifi ilə çıxış edirdilər. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan adlı dövlətin dilinin də Azərbaycan adlandırılması məsələsində söykəndiyi məntiq və göstərdiyi qətiyyət Onun, həqiqətən, çox böyük və güclü dövlət siyasətçisi olmasının daha bir təsdiqidir. Bu sahədə misalların sayını xeyli artırmaq olar. Elə götürək milli kadr potensialının möhkəmlənməsi sahəsində minlərlə azərbaycanlı gəncin SSRİ-nin nüfuzlu universitetlərinə göndərilməsi, milli ordunun olmadığı şəraitdə 1971-ci ildə indiki Heydər Əliyev adına Hərbi Liseyin yaradılması, 2000-dən çox gəncin SSRİ-nin müxtəlif ali hərbi məktəblərində təhsil almaq imkanını əldə etməsi, Azərbaycanın üzərindən milliyyətçilik damğasının götürülməsi üçün beynəlxalq aləmdə onun elm, mədəniyyət mərkəzi imicinin yaradılması, Bakıda müxtəlif elmi sahələrdə beynəlxalq və ümumittifaq məclislərinin, mötəbər konfransların, konqres və simpoziumların təşkili faktlarını. Daha sonra milli təəssübkeşliyin nümunəsi kimi "millətçi" damğası vurulmuş Mirzə İbrahimovun 1977-ci ildə Asiya və Afrika ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri seçilməsinə nail olunması, Ziya Bünyadovun erməni tarixçiləri tərəfindən kəskin tənqid edilən "Azərbaycan Atabəylər dövləti" kitabına dövlət mükafatının verilməsi və Ziya Bünyadovun AMEA-nın həqiqi üzvü – akademiki seçilməsi; Azərbaycanın milli tarixinin, dəyərlərinin, adların, abidələrin bərpası və qorunması, Kirovabad şəhərində yeni yaradılan inzibati rayonların "Gəncə" və "Kəpəz" adlandırılması, Bakıdakı İçərişəhərə, Ordubad və Şuşa şəhərlərinin tarixi məhəllələrinə "memarlıq qoruqları" statusu verilməsi, bütün rayonlarda və şəhərlərdə tarix-diyarşünaslıq muzeylərinin yaradılması və digər xidmətləri buraya aid edə bilərik.

***– Ümummilli Lider Heydər Əliyevin hələ sovet hakimiyyətinin tüğyan etdiyi bir zamanda xalqımız üçün, Vətənimiz Azərbaycan üçün gördüyü işlərin, xidmətlərin sayı, həqiqətən, çox olub. Buna gözəl nümunələr gətirdiniz. Bəs erməni işğalçılarının ərazi iddialarına qarşı tutarlı cavabların verilməsi, 20 Yanvar hadisələrinə etiraz edilməsi və daha neçə-neçə hadisələr... Gəlin son olaraq bu mövzuya da toxunaq.***

– Artıq qeyd edildi ki, sovet hakimiyyətinin mövcud olduğu illərdə bütün milli proseslərdən əvvəl Azərbaycançılıq ideologiyasının qorunması, yaşadılması, onun böyük müdrikliklə, hakimiyyətin gözündən uzaqda təbliğ edilməsi böyük siyasət tələb edirdi. Və belə bir şəraitdə sözügedən missiyanı böyük siyasi xadim Heydər Əliyev son dərəcə məharətlə həyata keçirib. Təsadüfi deyil ki, 1987-ci ildə – Dağlıq Qarabağ münaqişəsinin başlanması ərəfəsində məqsədyönlü şəkildə tutduğu vəzifələrdən kənarlaşdırıldıqdan sonra da O, Azərbaycanın maraqlarından çıxış edib. 20 yanvar 1990-cı il sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəyə etiraz olaraq ailəsi ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək buradakı çıxışında Sovet rəhbərliyinin Qarabağ münaqişəsinə münasibətdə ikiüzlü siyasətini kəskin tənqid etmək həmin dövr xüsusi cəsarət tələb edirdi. Bir məqamı da vurğulamaq istərdim ki, O, Azərbaycanda milli dövlətçilik ənənələrinin bərpasına məhz Naxçıvanda başlayıb. 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR parlamentinin sessiyasında muxtar respublikanın adından "Sovet Sosialist" sözlərinin götürülməsi, Azərbaycan Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının Dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında vəsatət qaldırılması, muxtar respublikanın ali qanunverici orqanının Ali Məclis adlandırılması, SSRİ-nin saxlanılması üçün Ümumittifaq referendumunda iştiraka etiraz və Naxçıvanın "Ümid körpüsü" bilavasitə bu böyük siyasətçinin təşəbbüsləri və qətiyyətli mövqeyi ilə bağlıdır. Elə sözümü də Onun bir fikri ilə bitirmək istərdim: ***"Hakimiyyətə, iqtidarlara və onların fəaliyyətinə müxalifətdə durmaq olar. Lakin dövlətə, dövlətçiliyə, milli birliyə, Vətənin, xalqın ümumi marağını ehtiva edən Azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərə, milli məsləkə, milli dilə, milli varlığa heç zaman müxalifətdə durmaq olmaz".***

***– Maraqlı müsahibə üçün çox sağ olun, Solmaz xanım, böyük bir tarixi yola nəzər saldınız. Həqiqətən, cümhuriyyətimizin qurulması ilə başlanan, bu gün isə özünün çiçəklənən dövrünü yaşayan Azərbaycan xalqının azadlığı, müstəqilliyi tarixi nailiyyətdir, əbədidir, həmişəyaşardır... Naxçıvanda sizi bir daha görmək ümidi ilə...***

**Məcid RƏŞADƏTOĞLU**

*Tarixən insanlar yaşamaq üçün müxtəlif qidalarla öz tələbatlarını ödəyiblər. Zaman keçdikcə, cəmiyyət inkişaf etdikcə qida rasionu da zənginləşib. Uzağa getmədən, tarixi vərəqləmədən bu gün bu sırada çörəyin lap öndə durduğu da məlum həqiqətdir. Ona görə də çörək həmişə müqəddəs sayılıb. Bu müqəddəslik Türk-İslam dünyasında daha yüksək tutulub və bu gün də belədir. Çörək and yeri olub; müdriklər çörəyi “Qurani-Kərim”ə bərabər tutublar. Çörəyə öz dəyərincə qiymət verib xalqımız. Bundan sərt və gözəl deyim ola bilərmi: “Allah heç kimi çörəklə imtahana çəkməsin”.*

# Öz taxılımızın çörəyi



Artıq XXI əsrdə yaşayırıq. Hər ötən gün, hər ay, hər il dünən gördüklərimizə əlavələr edir, imzasını atır, yeni münasibətlər meydana gəlir. Bu, həyatın qanunudur. Ancaq dəyişməyənlər də var. Başlıca olaraq bu sırada çörəyə ehtiram xüsusilə vurğulanmalıdır. Yəni çörək öz yerini və müqəddəsliyini dünən saxladığı kimi, bu gün də saxlayır və sabah da saxlayacağı şəksizdir. Uzağa getmədən mətləbə keçmək istəyirəm. Çörəyin strateji məhsul olmasını hamı bilir. Bu məhsula olan tələbatı ödəmək üçün dünyanın hər bir ölkəsində taxıl əkilir. Əksər inkişaf etmiş ölkələr ən məhsuldar sortlara üstünlük verir, yeni sortlar yaradılır.

Ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda da taxılçılığın iqtisadiyyatımızın əsasını təşkil etməsi təbiidir. Bu, məhsuldar torpaq sahələrimizdə özümüz üçün çörək istehsalına nail olmaqla yanaşı, həm də insanların məşğulluğunu, milli mətbəximizi öz məhsulumuzla təmin etmək, yüz illərin çörəkçilik ənənələrini yaşatmaqdır. Ona görə də qədim diyarımızda bu sahənin inkişafı üçün subsidiyalar verilir, yüksək məhsuldarlığa nail olmaq üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Belə tədbirlərin davamlı xarakter alması həm taxıl əkib-becərənlərə – istehsalçılara, həm də bu müqəddəs nemətdən istifadə edənlərə – istehlakçılara hərtərəfli dövlət qayğısının ifadəsidir. Faktlara müraciət etsək, cari ildə də bu sahənin diqqətdə saxlanıldığının şahidi olarıq. Ötən ilin payızında və cari ilin yazında muxtar respublikada 21247 hektar sahədə taxıl əkilib. Bunun 18 hektarı yazlıq buğda, 387,7 hektarı arpa, 12213 hektarı payızlıq buğda, 8549 hektarı isə arpadır. Taxıl əkinində ilk yer Babək rayonunun payına düşüb. Belə ki, bu bölgədə 6886 hektar sahə taxılçılıq üçün ayrılıb. Muxtar respublikanın ən böyük rayonlarından biri olan Şərurda isə cari ildə 4189 hektar sahədən məhsul götürülüb. Kəngərli taxılçıları da ötən illə müqayisədə əkin sahələrini bir qədər genişləndiriblər. Bu da həmin bölgədə son illərdə qapalı suvarma sisteminin yaradılması ilə bağlıdır.

Digər rayonlarımızda da əkin sahələrinin genişləndirilməsi, mütərəqqi əkin texnologiyalarından istifadə etmək diqqətdə saxlanılıb. Burada bir məsələni xüsusi qeyd etmək lazımdır. Aqrar sahə ilə məşğul olanlar yaxşı bilirlər ki, dünyanı bürüməkdə olan su problemi muxtar respublikamızdan da yan keçməyib. Ancaq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında içməli su və suvarma sularının böhranlı vəziyyətində idarə olunmasına dair Tədbirlər Planı” torpaq mülkiyyətçiləri tərəfindən onlara göstərilən qayğının daha bir ifadəsi kimi dəyərləndirilib. Həmin plana əsasən əhali arasında maarifləndirici söhbətlər aparılıb, istehsalçıların müraciətlərinə operativ qaydada baxılıb, magistral və paylayıcı kanallarda su itkisini azaltmaq üçün tədbirlər görülüb, suvarmada innovativ texnologiyalardan istifadəyə üstünlük verilib, su itkisinin qarşısının alınması məqsədilə gecə suvarmalarının təşkili və suvarma işlərinə nəzarət mexanizmi gücləndirilib, digər tədbirlər reallaşdırılıb.

Təbii ki, qarşıya qoyulmuş hədəfə çatmaq istiqamətli həmin tədbirlər nəticəsiz qalmayıb və öz bəhrələrini verib.

Taxıl biçininin gedişi vaxtı torpaq mülkiyyətçilərinin zəhmətinin hədər getməməsi hamımızı ürəkdən sevindirdi. Hər birimizin də ürəyindən keçən fikri xatırlamaq yerinə düşər: Şükür ki, bu il də öz təndirimizin, təknəmizin çörəyi süfrəmizin bəzəyi olacaq.

Bir qədər əvvəl daha çox taxıl əkilən bölgələrimizin adlarını çəkdim. Bir qədər də daha çox məhsuldarlıq qeydə alınan rayonlarımız barədə oxucularımıza məlumat vermək istərdim. Bu sırada taxılçılıqda böyük təcrübə qazanmış Şərur rayonu ön sırada dayanır. Sonrakı yer Sədərəyə məxsusdur. Kəngərli taxılçıları üçüncü pillədədir. İlk məhsul tədarükü dövrünün nəticələri belə deməyə əsas verir ki, mövsümün sonuna qədər digər rayonlarımızda da məhsuldarlıq gözlənilən olacaq. Bu isə taxılçıları gələn ilin bol məhsulunun əsasını vaxtında qoymağa ruhlandıracaq.

Bugünkü yazımızda Şərur rayonunda taxılçılığın inkişafını özündə ehtiva edən cari ilin nəticələri barədə danışmaq istəyirəm. Bölgədə ötən ilin payızında və cari ilin yazında 2164 təsərrüfat tərəfindən 4189 hektar sahədə taxıl əkilib; bunun 3592 hektarını buğda, 597 hektarını arpa təşkil edib. Sahələrdən bu günədək 14394,3 ton buğda, 1755,3 ton arpa olmaqla, 16149,6 ton məhsul götürülüb. Ümumi məhsuldarlıq 38,6 sentner, buğda üzrə 40,1 sentner, arpa üzrə 29,4 sentner olub. Taxıl tədarükü dövründə 8 kombayndan istifadə edilib.

Əldə olunan yüksək nəticənin təməlində hansı amillər dayanıb? İlk növbədə, qaldırılan şumdan başlayaraq məhsul tədarükünə kimi bütün aqrotexniki tələblərə əməl olunmasını qeyd etmək lazımdır. Digər amillərə gəldikdə əkin sahələrinin vaxtlı-vaxtında suvarılması, gübrələrin verilməsi, zərərvericilərə qarşı mübarizə tədbirlərində bütün normativlərin yerinə yetirilməsi başlıca rol oynayıb.

Bu il daha çox məhsul götürən rayonun taxılçıları Mübariz Şirəliyev, Xalidə Quliyeva, Yaqub Tağıyevlə söhbət zamanı onlar da bu amilləri açıqladılar.

***Mübariz Şirəliyev*** bildirdi ki, təsərrüfat adamına qayğı göstəriləndə o öz işinə daha məsuliyyətlə yanaşır. Onun sözlərinə görə, 63 hektar sahədə taxıl əkib, bunun 48 hektarı Günnüt kəndinə gedən yolun yaxınlığında, 15 hektarı Düdəngə kəndi ərazisində olub. Günnüt yolu ərazisində məhsuldarlıq 35, Düdəngədə isə 80 sentner təşkil edib. Bu, demək olar ki, nəinki Şərurda, hətta muxtar respublikada rekord göstəricidir.

Həmsöhbətim onu da diqqətimizə çatdırır ki, bütün kənd təsərrüfatı texnikalarına sahibdir ki, bunları torpaqda çalışmaqla qazanıb. Həmin texnikalardan öz təsərrüfatında istifadə etməklə yanaşı, rayonun digər təsərrüfat adamlarına da köməyini əsirgəməyib. Yeri gəlmişkən onu da qeyd edək ki, nümunəvi təsərrüfat sahibi kimi tanınan Mübariz Şirəliyev əkinçiliyin digər sahələri ilə də məşğul olur. Belə ki, bu il 0,5 hektar sahədə kartof, 5 hektar sahədə qarğıdalı, 3 hektar sahədə soğan, 1 hektar sahədə isə bostan məhsulları yetişdirib. Müsahibim həm də bağbanlıqla məşğuldur – 9,5 hektar meyvə bağı var. Bu bağlarda müxtəlif növ meyvə yetişdirir. Tədarük etdiyi məhsulları Cəlilkənddəki anbara yığır. İlboyu həmin məhsullar həm Şərurda, həm də Naxçıvan şəhərində təşkil edilən müxtəlif festivallara və kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına çıxarılır.

Müsahibim artıq taxıl əkiləcək sahələrdə şum qaldırılmasının vaxtı olduğunu da diqqətimizə çatdıraraq yaxın günlərdə bu işə başlayacağını deyir. Onunla söhbətdə başa düşmək çətin deyildi ki, təsərrüfat adamının builki uğurları torpağa bağlılığın, onun qədrini bilməyin ifadəsidir. Torpağın qədrini bilmək isə gənclərə bir örnəkdir. Belə gənclərdən biri də ***Yaqub Tağıyev***dir. Onun söhbəti:

– Bir neçə ildir ki, torpağın ruzibərəkətini görürəm. Bu qiymətli sərvət heç kimin zəhmətini yerə vurmur, əvəzini birə-beş qaytarır. Mən də ailəmlə birlikdə mövsüm ərzində gecəni gündüzə qataraq torpaqda çalışır, müxtəlif əkinçilik məhsulları yetişdiririk. Təsərrüfat işlərinin qızğın vaxtı əlavə qüvvə də cəlb edərək aqrotexniki tədbirləri vaxtında yerinə yetirməyə çalışırıq. Bəlkə də, kiməsə inanılmaz gələr ki, torpaq, əkin canlı orqanizmdir. Onların tələbatı vaxtında ödənilməlidir.

Müsahibimin üzündə təbəssüm görünür: – Yəqin, elə buna görədir ki, ötən illər ərzində də, cari ildə də istədiyimizə nail ola bilmişik.

Onun sözlərinə görə, 15,7 hektar taxıl əkini sahəsində məhsuldarlığı 75 sentnerə çatdırıb. 30 hektar sahədə kartof, 12 hektar sahədə soğan, 10 hektar sahədə qarğıdalı yetişdirib. Nümunəvi fermer təsərrüfatı qurmağa nail olmuş Yaqub Tağıyev son illərdə muxtar respublikada torpaq mülkiyyətçilərinə, fermerlərə, sahibkarlıq subyektlərinə göstərilən qayğıdan bəhs edərək deyir ki, bu il “Naxçıvanbank”dan 120 min manat kredit götürüb, qısa zamanda həmin vəsaiti qaytaracaq. Onu da öyrənirik ki, onun da öhdəsində bir neçə kənd təsərrüfatı texnikası var. Ona görə də texnika üçün başqalarına müraciət etmir, əksinə, öz təsərrüfatçı dostlarına da kömək əlini uzadır.

Bölgədə taxılçılıqda yaxşı təcrübə qazanmış ailə təsərrüfatlarından biri də ***Xalidə Quliyeva***ya məxsusdur. O, cari ildə 57 hektar sahədə taxıl əkib-becərib. Məhsuldarlığı 35,1 sentnerə çatdırıb. Qeyd edək ki, o əkini Mahmudkənd inzibati ərazi dairəsinin tərkibindəki Bəhruz Kəngərli kəndində aparıb. Torpaq mülkiyyətçisinin sözlərinə görə, bu sahə uzun illər baxımsız qalıb, əkilib-becərilməyib. Bu təşəbbüsü göstərən ailə təsərrüfatına dəstək olanlara minnətdarlığını bildirən Xalidə Quliyeva gələcəkdə taxıl əkini sahəsini bir qədər də genişləndirmək barədə düşünür. Deyir ki, yaradılan imkanlardan istifadə edən hər bir kəs öz yaşayış səviyyəsini yüksəldə, ölkəmizin iqtisadiyyatının gücləndirilməsinə töhfəsini verə bilər.

Hörmətli oxucu! Şərur rayonunda belə torpaq mülkiyyətçiləri çoxdur və onların hamısı haqqında bir qəzet yazısında bəhs etmək mümkün deyil. Ancaq onu vurğulamaq istərdim ki, həmsöhbət olduğum torpaq mülkiyyətçilərinin hər biri ölkə başçısının “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında 2023-cü il 5 iyun tarixli Sərəncamının digər sahələrlə yanaşı, taxılçılığın inkişafına da stimul olduğuna, gələcəkdə daha böyük uğurlar qazanılacağına əminliklərini ifadə edərək göstərilən qayğıya görə minnətdarlıqlarını dilə gətirdi.

Biz də torpağa ən halal qazanc mənbəyi kimi baxan muxtar respublikanın bütün torpaq mülkiyyətçilərinə daha böyük nailiyyətlərə sahib olmağı arzulayırıq.

**✍ Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində cari ilin 7 ayında görülmüş işlər və qarşıda duran vəzifələrə dair kollegiya iclası keçirilib. İclasda Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən İsmayılov çıxış edərək bildirib ki, 2023-cü ilin 7 ayı üzrə Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri ötən ilin eyni dövrü ilə müqayisədə 9,1 milyon manat və ya 10 faiz çox, 99,2 milyon manat məbləğində icra edilib. Buradakı əsas məqamlardan biri odur ki, ötən il Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinə aid edilən gömrük yığımları üzrə gəlirlərin (yol vergisi üzrə daxilolmalar istisna olunmaqla) muxtar respublika gəlirlərindən çıxarılaraq Azərbaycan Respublikası dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirlərinə aid edilməsinə baxmayaraq, Naxçıvan Muxtar Respublikasının gəlirlərinin icrası ötən ilə nisbətən müsbət göstəricilərə malik olub.

Qeyd edilib ki, büdcənin xərclərində də nəzərəçarpacaq dərəcədə dəyişikliklər olub, xərclərdə qənaət təmin edilib, ötən ilin eyni dövrü üzrə xərclərlə müqayisədə 47,4 milyon manat az vəsait xərclənib, cari ilin ötən 7 ayında Naxçıvan Muxtar Respublikasının büdcəsinin xərcləri 287,8 milyon manat icra edilib. Gəlirlərin artması və xərclərin azalması hesabına Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiyanın miqdarında da nəzərəçarpan azalma təmin edilib, ötən ilin 7 ayına nisbətən 29 milyon manat az, 224 milyon manat məbləğində dotasiya alınıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatı üçün çox mühüm hadisə hesab edilən Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə maliyyə orqanlarının üzərinə düşən vəzifələrin icrasının təmin edilməsi, Naxçıvan Muxtar Respublikasının növbəti illər ərzində sosial-iqtisadi göstəricilərində mühüm dəyişikliklərin həyata keçirilməsi və bununla Naxçıvan Muxtar Respublikası büdcəsinin prioritet hədəflərinə çatdırılması nəzərdə tutulur.

Sonra iclasın gündəliyinə uyğun olaraq nazirliyin müvafiq şöbələri tərəfindən 2023-cü ilin 7 ayı ərzində görülmüş işlər barədə məlumat verilib, 2024-cü il və sonrakı üç il üçün büdcə layihələrinin tərtibi, büdcənin icrası və dürüstləşmə barədə çıxışlar dinlənilib.

Sonda Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən İsmayılov muxtar respublikada maliyyə sahəsində şəffaflığın təmin edilməsi, büdcə vəsaitlərinə nəzarətin gücləndirilməsi, qənaətcil və səmərəli maliyyələşdirilmənin təmin edilməsi ilə bağlı qarşıya qoyulmuş məqsədlərə nail olunması üçün nazirliyin kollektivinin işə lazımi qaydada məsuliyyətli yanaşmasının zəruriliyini diqqətə çatdırıb.

**✍ Nail ƏSGƏROV**

# Qarşılıqlı əməkdaşlığa dair görüş keçirilib



Türkiyə Respublikasının İqdır vilayətində, İqdır Ticarət və Sənaye Palatasında “Himal Holdinq” şirkətinin rəhbəri Hacı Ələsgərov Türkiyənin “Okuklu Holdinq” şirkətinin Azərbaycandakı sədri Yılmaz Okuklu, İqdır Ticarət və Sənaye Palatasının sədri Kamil Arslan ilə görüşüb.

İşgüzar görüş zamanı “Himal Holdinq”in rəhbəri Hacı Ələsgərov son aylar Azərbaycanın qardaş ölkə ilə həmsərhəd diyarı Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafında böyük irəliləyişlər olduğunu, Türkiyədə, xüsusilə İqdırda fəaliyyət göstərən iş adamlarının sərmayə qoymağa dəvət edildiyini, Naxçıvanda istehsal mərkəzlərinin yaradılması üçün 4 hektar ərazi ayrıldığını və tekstil şirkətlərinin buraya sərmayə qoya biləcəyini bildirib.

“Okuklu Holdinq”in İdarə Heyətinin sədri Yılmaz Okuklu bu fürsətin qiymətləndiriləcəyini, İqdırdakı iş adamlarını Naxçıvana sərmayə qoymağa dəvət etdiyini açıqlayıb. İqdır Ticarət və Sənaye Palatasının rəhbəri Kamil Arslan səmərəli keçən görüşdən məmnunluq ifadə edib, “Biz iki dövlət, bir millətik və Naxçıvanın inkişafı üçün əlimizdən gələni etməyə hazırıq”, – deyə vurğulayıb.

Görüş zamanı nəqliyyat, logistika, tekstil, qida laboratoriyaları, mineral suların satışı və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub. Tərəflər əməkdaşlıq imkanlarından, həyata keçirilən layihələrdən və ticarət dövriyyəsinin artırılması istiqamətində görülən işlərdən məmnunluqlarını ifadə ediblər.

# Vətəndaş qəbulu olub



Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli Vənənd kəndində səyyar qəbul keçirib. Rayon İcra Hakimiyyətinin başçısı son illər respublikamızda həyata keçirilən innovasiyalara əsaslanan quruculuq işlərindən, əhalinin rifah halının yaxşılaşdırılmasından, sosial-iqtisadi inkişafa söykənən islahatların Ordubad rayonunda da geniş vüsət almasından danışıb. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin rəhbərliyi altında yeni idarəetmə modelinin yaradılmasının muxtar respublikanın çoxşaxəli inkişafına təkan verəcəyini, ölkə başçısının müvafiq Sərəncamı ilə qəbul edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın Ordubad rayonu üçün də mühüm əhəmiyyət kəsb etdiyini bildirib, rayonun gələcək inkişaf perspektivləri barədə ətraflı məlumat verib.

Vətəndaş qəbulunda kənd sakinlərinin üzləşdikləri müxtəlif istiqamətli çətinliklər və təkliflər dinlənilib, müvafiq sahələr üzrə məsul şəxslərin iştirakı ilə bu məsələlərin həlli istiqamətində görüləcək tədbirlər müəyyənləşdirilib və qarşıda duran vəzifələrlə bağlı müzakirələr aparılıb.

Qəbul zamanı vətəndaşların irəli sürdüyü problemlərin bir hissəsi qəbulun gedişində öz həllini tapıb, digər məsələlərin həlli üzrə icra hakimiyyətinin başçısı tərəfindən aidiyyəti idarə, müəssisə və təşkilatların məsul şəxslərinə müəyyən tapşırıqlar verilib.

**Xəbərlər şöbəsi**

*Ötən ay Naxçıvanda – Ağbulaq İstirahət Mərkəzində keçirilən “Diabet mənim dostumdur” adlı istirahət düşərgəsi Azərbaycanda öz ilkliyi ilə seçildi. Həmin düşərgədə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən diabetli uşaqlar 24 saatlıq qlükoza monitorizasiyası üçün “Qlükoz sensor” cihazları ilə təmin olundu. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin həmin tədbirdə şəxsən iştirak etməsi, diabetli uşaqlara müraciət edərək* ***“Diabet heç bir şəkildə sizin həyatınızda maneəyə çevrilməməlidir. Yaxşı oxumalısınız, dərslərinizdə hər zaman uğurlar qazanmalısınız ki, biz və valideynləriniz də sizinlə fəxr edək”*** *deməsi uşaqlara ən böyük mənəvi dəstək, motivasiya oldu.*

Səhiyyə

## Diabet maneə yox, yaşam tərzidir

### *Muxtar respublikamızın azyaşlı diabetli sakinləri qayğı ilə əhatə olunub*



Bəs həmin uşaqların “Qlükoz sensor”larla təmin olması onlara nə verəcək? Belə cihazlar uşaqları hansı təsirlərdən qoruyur? Bu kimi suallara cavab almaq üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasına üz tutub həkim, valideyn və azyaşlılarla həmsöhbət olduq.

İlk həmsöhbətim – xəstəxananın Endokrinoloji xəstəliklər şöbəsinin müdiri, həkim-endokrinoloq ***Aysel Dünyamalıyeva*** bildirdi ki, valideynlər diabetli uşaqların gündə ən azı 6 dəfədən artıq barmaqlarını zədələyərək qanda şəkərin miqdarını ölçmək məcburiyyətində qalırlar. Uşaqlara hədiyyə edilən “Qlükoz sensor” cihazların sayəsində qanda şəkərin miqdarının ölçülməsi zamanı barmaqların zədələnməsi birdəfəlik aradan qaldırılıb. Bu həm də gələcəkdə diabetin fəsadları olan böyrəklə, gözlə, sinir sistemi ilə bağlı ağırlaşmaların qarşısını alacaq və onların komfortlu həyat tərzinə sahib olmalarına şərait yaradacaqdır. Həkim bildirir ki, həmin düşərgədə 30-dan çox uşaq “Qlükoz sensor”la təmin olundu və bu tədbirlər silsiləli şəkildə davam etdirilir. Həkim qeyd edir ki, bu aparatlara nəzarət olunur və hər bir uşağın sensoru 14 gündən bir dəyişdirilir. Bu zaman bütün xərclər dövlət tərəfindən qarşılanır. Bununla yanaşı, uşaqlar gündəlik qəbul etməli olduqları dərman vasitələri ilə də təmin olunur. Çalışırıq ki, uşaqlarımıza diabetin bir xəstəlik deyil, yaşam tərzi olduğunu bildirək və onlara mənəvi-psixoloji stimul olaq.

Xəstəxanada olarkən sensorunu yenisi ilə əvəz etməyə gələn 6 yaşlı Nilayın anası ***Türkanə Seyidbəyli*** ilə həmsöhbət olduq. O dedi:

– Allahın ən böyük hədiyyəsi də, sınağı da övladdır. Hər bir valideyn övladının sağlam olması üçün əlindən gələni edir. Amma bəzən bizim nəvazişimiz uşaqlarımızın köməyinə yetmir. Onların bəzisi dünyaya ömürboyu özləri ilə daşımalı olduqları xəstəliklə gəlirlər. Bəzisi isə hansısa təsirin nəticəsində sonradan xəstəliyə tutulur. Və bu övladlarımızın yaşam tərzinə çevrilir. Bu vaxt valideynlərin və uşaqların köməyinə ağxalatlılar çatır. Dövlətimizin dəstəyi ilə həkimlərimiz övladlarımıza bu keşməkeşli yolda kömək olur. Qızım Nilay bir ilə yaxındır ki, diabet xəstəsidir. İlk dəfə bu xəbəri həkimdən alanda dünyam uçdu sanki. Körpəmin bu kiçik yaşında belə bir xəstəliyə tutulması məni çox kədərləndirdi. Həkimlərin köməyi ilə çətin mərhələləri keçdik, amma hər gün heç olmasa, iki-üç dəfə qan analizi üçün qızımın barmaqlarını xüsusi iynələrlə deşəndə onun canı nə qədər yanırdısa, mənim ürəyim ondan min qat artıq ağrıyırdı. “Uşağı incitmədən bunu necə öyrənmək olar?” – deyə araşdırmalar aparırdım. Yaxşı olacağına ümid edirdim. Yaxın günlərdə qızımın həkimi belə bir sensorun gətirildiyini və təmənnasız olaraq uşaqların istifadəsinə veriləcəyini dedi. Çox sevindik. Artıq bir aya yaxındır ki, qızımın qanındakı şəkərin miqdarını bu sensor vasitəsilə günün istənilən saatında öyrənə bilirik. Mən heç vaxt “qızım şəkərli diabet xəstəliyindən əziyyət çəkir” demirəm. Biz bunu əziyyət, xəstəlik kimi deyil, həyat tərzi kimi qəbul etmişik. Bütün xəstəliklər insanın düşmənidir. İnsan düşməni ilə düşmənlik etsə yaxşıdır, yoxsa dil tapsa? Təbii ki, dil tapsa. Diabet də belədir. Biz onunla dil tapa bilməsək, onu məğlub etməsək, o bizi məhv edəcək. Biz qızımla birlikdə dövlətimizin də dəstəyi ilə bu xəstəliklə dil tapıb qızımı da buna alışdırmışıq.




Digər müsahibim ***İsmayıl Əliyev***in 14 yaşı var. O, təhsildə yüksək nailiyyət qazanan yeniyetmələrimizdəndir. Dedi ki, üç ildir, diabet xəstəsidir. Lakin taleyi ilə barışıb bunu qəbul etməli olub. Dərslərini hazırlamaqda, dostları ilə əylənməkdə bu xəstəlik ona mane ola bilmir: “Gün ərzində məktəbə gedirəm, boş zamanımda dostlarımla əylənirəm və demək olar ki, şəkər xəstəsi olduğumu unuduram. Amma günün müxtəlif saatlarında anam şəkərimi ölçmək üçün aparat əlində göründəndə bilmirdim ki, barmaqlarımı necə gizlədim. Bu xoşagəlməz hal bir gündə ən azı 6 dəfə təkrar olunur, əhvali-ruhiyyəmi tamam korlayırdı. Barmaqlarımın yaraları sağalmağa macal tapmırdı. Dərslərdə qələm, idman oyunlarında topu tuta bilmirdim. Öz xəstəliyim barədə məlumat əldə etmək istəyərkən sensor aparat haqqında öyrənmişdim. Onun həyatımı necə asanlaşdıracağını bilirdim. Ötən ay həkimim Aysel xanım zəng vurub belə bir sensorun muxtar respublikaya gətirildiyini və bizə hədiyyə ediləcəyini dedi. Çox sevindim. Həmin sensorla təmin edilməndən artıq qanımdakı şəkərin miqdarına özüm mobil telefonumla rahatlıqla nəzarət edə bilirəm. Bunun nəticəsində gün ərzində daha gümrah, yaxşı əhvali-ruhiyyədə oluram.



Həkim və uşaqlarla həmsöhbət olduqdan sonra bu xəstəliyin uşaq psixologiyasına təsiri barədə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Nevrologiya şöbəsinin müdiri, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi, tanınmış nevropatoloq ***Yazgül Rzayeva*** ilə söhbət etdim.

Həkim bildirdi ki, hər hansı bir səbəbdən uşaqlar bəzən anadangəlmə, bəzən isə sonradan bu xəstəliyə tutulur və həyatlarının sonuna kimi diabetlə birlikdə yaşayırlar. Belə uşaqlar digərlərinə nisbətən daha əsəbi və gərgin olurlar. Buna səbəb bu xəstəlik üzündən onların bəzi qadağalarla üzləşmələridir. Bəzən valideynlər belə uşaqlara nəzarəti həddindən artıq gücləndirir və çoxlu qadağalar qoyur. Bu da uşaqları aqressiv edir. İlk olaraq valideyn özü bu xəstəliyi faciə kimi yox, gündəlik həyat tərzi kimi qəbul etməli və uşağına da bunu aşılamalıdır. Onda diabetlə yaşamaq daha asan olur. Həkim bildirir ki, müasir dövrümüzdə diabetli uşaqları öz yaşam tərzinə uyğunlaşdırmaq üçün bir çox vasitələr var. Onların ən çox əziyyət çəkdikləri məqam olan qan şəkərinin yoxlanılması artıq müasir üsullarla aparılır. Şəkəri tənzimləmək üçün iynələrdən yox, müxtəlif tabletlərdən istifadə olunur.

Ömrünün yarısından çoxunu uşaqları müayinə və müalicə etməklə keçirən həkim xüsusilə vurğulayır ki, elə bir uşaq yoxdur ki, ona iynə vurulanda qorxu-həyəcan hissi keçirməsin. Nəzərə alsaq ki, diabetli uşaqların gündə ən azı 6 dəfə barmaqları iynə ilə deşilib qanı analiz olunur, görün bu uşağın psixologiyasına nə qədər mənfi təsir edir?! Hər dəfə barmaq deşiləndə uşaq nə qədər narahat olur və ağlayır. Üstəlik də bu hal diabetli uşaqlar üçün səhhətlərinin pisləşməsi ilə nəticələnə bilər. Bu gün sevindirici haldır ki, uşaqlarımız dövlətin qayğısı ilə qanda şəkərin miqdarını yoxlayan müasir aparatla təmin olunur. Muxtar respublikamızda səhiyyə sahəsində uşaqlara yüksək diqqət göstərilir. Həm valideynlər, həm də körpələrimiz böyük bir çətinlikdən azad olurlar.

Aysel həkimin otağında bir neçə uşağın qolundakı “Qlükoz sensor”un dəyişdirilməsinə şahidlik etdim. Və gördüm ki, uşaqlar qorxmadan həkimin otağına daxil olur, rahatlıqla bu prosesi izləyirlər.

*Onların bir neçəsinin barmaqlarında hələ də iynənin açdığı izləri görəndə öz-özümə uşaqlara sözdə yox, əməldə qayğı lazımdır deyə fikirləşdim. Bu gün onlara göstərilən qayğı ilə sübut etdik ki, dövlətimiz gələcəyi olan uşaqların hər zaman, hər yerdə yanındadır. Və onlar bu qayğının sayəsində şəkərin xəstəlik yox, yaşam tərzi olduğunu qəbul edib, gələcəyin mənəvi-psixoloji, fizioloji cəhətdən zəif gəncləri yox, Vətənini qəlbən sevən həkimləri, alimləri, müəllimləri, polisləri olacaqlar.*

✍ **Ramiyyə ƏKBƏROVA**

*Cinayət qanunvericiliyi ictimai təhlükəli və hüquqazidd əməl olan dələduzluq cinayətinə belə anlayış vermişdir: dələduzluq, yəni etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmədir. Yəni bu cinayət əməlinin obyektini talamanın digər formalarında olduğu kimi, mülkiyyət münasibətləri təşkil edir. Dələduzluq nəticəsində təqsirkar təkcə özgənin əmlakını yox, həm də həmin əmlaka olan hüquqlarını qanunsuz əldə edir.*

## Etibardan sui-istifadə etmənin hüquqi nəticələri

Dələduzluq talamanın bir forması olmaqla onun əsas əlamətlərini özündə ehtiva edir. Lakin talamanın digər formalarından fərqli olaraq bu cinayət törədilmə üsulu ilə seçilir. Qanun əmlakın və ya əmlaka olan hüququn ələ keçirilməsinin üsulu kimi aldatma və ya etibardan sui-istifadəni nəzərdə tutur. Bu cinayətin fərqli cəhəti ondan ibarətdir ki, mülkiyyətçinin əmlakı özgəninkiləşdirməsi və onu cinayətkara verməsi zahiri cəhətdən könüllü görünür. Təqsirkar aldadaraq və ya etibardan sui-istifadə edərək zərərçəkmiş şəxsi yanılma dərəcəsinə çatdırmaqla əmlakın ona verilməsinə nail olur. Törədilmiş bu əməl o halda Cinayət Məcəlləsinin 178-ci maddəsində nəzərdə tutulmuş dələduzluq hesab edilir ki, şəxsin niyyəti əmlakı ələ keçirərkən və ya əmlak hüquqları əldə edərkən hər hansı öhdəliyin yerinə yetirilməsinə deyil, özgənin əmlakının əvəzsiz və qanunsuz olaraq öz mülkiyyətinə keçirilməsinə, yaxud da əmlak hüququnun əldə edilməsinə yönəlmiş olsun. Dələduzluq özünün törədilmə üsuluna görə iki növə ayrılır: aldatma yolu ilə dələduzluq və etibardan sui-istifadə etmə yolu ilə dələduzluq.

Qeyd edək ki, aldatmanın məzmununu çox hallarda yalan vədlər təşkil edir. Həmin vədlərin köməyi ilə dələduz əmlakı ələ keçirmək məqsədilə zərərçəkmişi öz həqiqi niyyətləri barədə aldadır. Başqa şəxsə rüşvət verəcəyi adı ilə aldatma və ya etibardan sui-istifadə etməklə özgəsinin əmlakını mənimsəmək üçün ələ keçirən təqsirləndirilən şəxsin əməli dələduzluq kimi qeyd edilməlidir. Nəzərə almaq lazımdır ki, burada əmlak başqasına rüşvət vermək adı ilə ələ keçirilsə də, təqsirləndirilən şəxsin məqsədi özgənin əmlakını ələ keçirməyə yönəldiyindən bu əməl vahid qəsdlə əhatə olunur.

Dələduzluq zamanı əmlakın və ya əmlaka olan hüquqların təqsirkara verilməsi həmin predmetlərin dələduza təkcə faktiki verilməsini nəzərdə tutmur. Bu zaman həmin əmlak üzərində mülkiyyət hüququnun bəzi elementləri də təqsirkara verilir. Ona görə də qısamüddətli işlərin görülməsi hallarında etibar edilmiş əmlakı talama dələduzluq kimi qeyd oluna bilməz. Dələduzluğun subyektiv cəhəti oğurluq tərkibinin eyniadlı əlamətləri ilə analojidir. Dələduzluq cinayətinin subyekti 16 yaşına çatmış, anlaqlı yəni, öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk edən və ya onu idarə edə bilən fiziki şəxslər ola bilər.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178-ci maddəsinə əsasən dələduzluq əməlinin törədilməsi min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Eyni əməllər qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə, təkrar törədildikdə, şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə və ya xeyli miqdarda ziyan vurmaqla törədildikdə, dörd min manatdan yeddi min manatadək miqdarda cərimə və ya əmlakı müsadirə olunmaqla və ya olunmamaqla bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qeyd olunan əməllər mütəşəkkil dəstə tərəfindən törədildikdə, külli miqdarda (əlli min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğdə) ziyan vurmaqla törədildikdə, əvvəllər talama və ya hədə-qorxu ilə tələb etməyə görə iki dəfə və ya daha çox məhkum edilmiş şəxs tərəfindən törədildikdə həmin şəxsə beş ildən on ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu əməllər xüsusilə külli miqdarda (beş yüz min manatdan yuxarı olan məbləğdə) ziyan vurmaqla törədildikdə isə on ildən on dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Psixoloqlar isə qeyd edirlər ki, hər hansı bir şəxs etibardan sui-istifadə edirsə, insanları aldadırsa, həmin şəxsdə, ilk növbədə, bütöv şəxsiyyət çatışmazlığı mövcuddur. Həmin insanların xarakterində mənfi əlamətlər üstünlük təşkil edir. Etibardan sui-istifadə edən insanlarda, ilk növbədə, özünəinam aşağıdır.

Digər tərəfdən həmin şəxslərdə mənəvi zənginlik aşağı səviyyədədir. Bir insanın mənəvi zənginliyi onun münasibətlər zənginliyində ifadə olunur. Etibarsız insanlara qarşı isə cəmiyyətin münasibəti həmişə soyuq olub. Onlar cəmiyyətin sosial nəzarətini nəzərə almalıdırlar.

**Faiq SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri***

## Naxçıvan Muxtar Respublikası üzrə 2023-cü ildə taxıl biçininin yekununa dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/ hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 689 | 689 | 1478,2 | 21,5 |
| 2. | Şərur rayonu | 4189 | 4184,4 | 16149,6 | 38,6 |
| 3. | Babək rayonu | 6886 | 5897 | 11794 | 20 |
| 4. | Ordubad rayonu | 856 | 856 | 1185 | 13,8 |
| 5. | Culfa rayonu | 2181 | 1821,7 | 2420,6 | 13,3 |
| 6. | Kəngərli rayonu | 3780 | 3763 | 8743 | 23,2 |
| 7. | Şahbuz rayonu | 756 | 705,8 | 704,9 | 10 |
| 8. | Sədərək rayonu | 1910 | 1880,6 | 6792 | 36,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **21247** | **19797,5** | **49267,3** | **24,9** |

### *İtmişdir*

Babək rayonunun Cəhri qəsəbəsində Həsənova Şəbnəm Abbas qızının adına olan A-019293 nömrəli torpaq sahəsinin plan və ölçüsü, 1218007662 qeydiyyat nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kənd sakini Orucov Ələşrəf Fərrux oğlunun adına verilmiş JN-281 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Cəhri qəsəbəsində Orucov Hacı Heydərəli oğlunun adına olan JN-554A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 492